Əvvəli ötən saylarda

# ORTAQ KEÇMİŞDƏN ORTAQ GƏLƏCƏYƏ

## ÇARİZMİN İŞĞALÇILIQ SİYASƏTİ ÜMUMTÜRK TARİXİ KONTEKSTİNDƏ

### Qızıl Orda və ondan törəmə tatar xanlıqları

*(tarixi-etnoqrafik oçerklər)*

**Qızıl Orda irsi və varislər məsələsi**

Tarixçilərin işinə qarışmaq istəməzdik, amma burada bir incə nüansı vurğulamasaq da, olmaz. Müasir tarixşünaslıqda Qızıl Ordanın mirasına iddia edən siyasi vahidlər məsələsi bu günə qədər də həllini tapmayıb. Ordanın tarixi irsi çoxsaylı etnik və siyasi varislərin müştərək malı olduğundan orta əsrlərdən üzü bu yana bu zəngin mirasın "bölüşdürülməsi" daha çox "maraqlar münaqişəsi" zəminində interpretasiya edilib. Ziddiyyət və əksiklər hələ də həllini tapmayıb. Törəmə xanlıqların (eləcə də digər siyasi təsisatların) yaranma vaxtı və yeri, qarşılıqlı münasibətləri, bir çox mühüm hadisələrin inkişaf məntiqi və s. haqda məlumat və rəylər məhz bu cəhətdən xeyli dolaşıqdır. Vəziyyətin dolaşıqlığını anlamaq, bu barədə müəyyən təsəvvür yaratmaqdan ötrü, zənnimizcə, o fakt da yetər ki, İlya Zaytsevin "Həştərxan xanlığı" monoqrafiyasında təkcə bu xanlığın yaranma tarixi kimi müxtəlif müəlliflər tərəfindən 1466-cı (M.Səfərqaliyev, R.R. Arat), 1459-1460-cı (Verein, Vorobyov, Semyonov və b.), 1450-1464-cü illərin (L.Podqorodetski), habelə gah ümumi şəkildə XIV, gah da XV əsrlərin göstərildiyi, lakin bunların heç birinin dəqiq olmadığı inandırıcı arqumentlərlə sübuta yetirilir. Ziddiyyətlərin səbəbi kimi çox zaman orta əsr mənbələrinin sayca məhdudluğu əsas gətirilir, amma hadisələrin rekonstruksiyası zamanı subyektiv yanaşmaların da geniş yayıldığı aydın görsənir. Bu mənada tatar tarixçisi İlnur Mirqaleyevlə razılaşmamaq olmur: "Tədqiqatçılar tatar xanlıqlarının "yaranması" ilə əlaqədar müxtəlif tarixlər gətirirlər, amma bunları "başlanğıc nöqtəsi" kimi yalnız şərti olaraq qəbul etmək mümkündür. Həqiqətə qalanda bu dövrdə əzəmətli bir imperiyanın bir neçə yurda-vilayətə parçalanması prosesi getmişdir və tatar xanlıqlarının tarixini Qızıl Ordanın ümumi tarixinin konkret bölgələrdəki davamı kimi nəzərdən keçirmək daha düzgündür. Müxtəlif vilayətlərdə sikkə basdıran, özlərini xan elan edən və Sarayın hakimiyyətini tanımayan bu emitentlər heç də yeni dövlətlər qurmağı planlaşdırmamış, yalnız Aşağı Volqada yerləşən Saray əl-Cədidi ələ keçirməyə, digər iddiaçılar - cucilər nəslinin müxtəlif şaxələri üzrə qohumlarını, bəzən hətta doğma qardaşlarını itaət etdirməyə çalışmışlar. Öz aralarında müharibələr aparan, sülh bağlayan, daxili və xarici düşmənlərə qarşı ittifaqlar quran bu xanlar yalnız "Taxt eli"nə sahib olmaq, bununla da Qızıl Orda mirasına iddia və hüquqlarının legitimləşdirmək, rəsmiləşdirmək və qalan rəqibləri üzərində üstünlük qazanmaq məqsədi güdüblər... Tatar xanlıqları Cuci ulusunun - Qızıl Ordanın birbaşa davamçılarıdır. Bu yeni siyasi mərkəzlər - Kazan, Krım, Hacıtərxan, Sibirdə Tümen və b. yaranışlarının əvvəlindən bir qayə - Qızıl Orda ərazilərini yenidən birləşdirmək qayəsi uğrunda çalışıb".

Əlbəttə, Qızıl Ordadan törəmə bütün xanlıqlar bu və ya digər dərəcədə onun varisləri idilər. Lakin burada söhbət siyasi vərəsəliyin rəsmiləşdirilməsindən, Ordanın hakim davamçısı kimi fəaliyyət göstərmək istəyindən, eləcə də başqa xanlıqlara iddia etmək, bunun üçün mübarizə aparmaq hüquqlarından gedir. Tarixçilərin fikrincə, bu status əvvəlcə təbii olaraq, Böyük Ordada olmuşdur. Hakimiyyət dairəsinin məhdudlaşmasına, ərazilərinin mühüm hissəsinin itirilməsinə baxmayaraq (əlində paytaxt Saray, bir də Volqa və Dnepr çayları arasındakı torpaqlar qalmışdı), Böyük Orda elə Qızıl Ordanın özü (bədəbəddə yeni formatı) kimi qəbul olunur, onun əvəzləyicisi, ən azı, tamhüquqlu varisi sayılırdı. Seyid Əhməd (tarix kitablarında Böyük Ordanın son xanları arasında Seyid Əhməd, Əhməd və Şeyx Əhməd adı ilə 4 müxtəlif şəxsdən danışılır və bunların hamısı 1433-1455-ci illərdə hakimiyyətdə olmuş "ata" Seyid Əhmədin oğul-uşağıdır) özünü bütün tatarların xanı bilir, qalan uluslara və Moskva knyazlığına göndərdiyi səfirlər vasitəsilə onlardan sözsüz itaət tələb edirdi. O, qarşısına Qızıl Orda dövlətini ilkin sərhədləri çərçivəsində bərpa etmək, yenidən beynəlxalq siyasətin aktiv subyektinə çevirmək məqsədi qoymuşdu, Qızıl Orda xanı kimi tanınmaq istəyir (bəzi mənbələrdə elə bu cür də təqdim edilir) və bu yolda rəqiblərinə qarşı fəal xətt-hərəkət yeridirdi. XV əsrin sonlarında Seyid Əhmədin Kazan, Krım, Noqay yurdlarına, habelə Moskva üzərinə hücumları qarşı tərəflərin də fəallaşmasına və onun əleyhinə şərti olaraq Krım-Moskva və Noqay-Sibir koalisiyaları adlandırıla biləcək ittifaqların yaranmasına gətirib çıxarmışdı. Jan Pol Runun məlumatlarına etibar etsək, "1474 və 1476-cı illərdə Əhməd xan (bu, artıq başqa Əhməddir-N.M.) vergiləri ödəmədiyi üçün Böyük İvana, yeni III İvana (1462-1505) qəzəblənərək müttəfiqi olan Polşa kralı ilə birlikdə Moskva üzərinə hücuma keçdi, Uqra üzərində İvanın ordusu ilə qarşılaşdı, lakin qış olduğundan geri dönmək qərarına gəldi. Və bu, onun üçün ölümcül qərar oldu. Artıq o, ulusunun komandanı deyildir. Bir müddət sonra isə sibirli Şeyban tərəfindən öldürülür. 20 il sonra Krım xanı Məngü Girey (1446-1514) Saraya hücum edir, şəhəri yandırır, bu dövlətə son verir və ondan qalan hər şeyi tarixdən silir". Lakin məlumdur ki, Məngü (türk mənbələrində "Məngli") Gireyin Seyid Əhməd xanın törəmələri üzərində qələbə çaldığı 1502-ci ilə qədər "Taxt eli" bir müddət də Həştərxan (Hacıtərxan) xanlığının nəzarətində olmuşdur.

Əslində Saray əl-Cədid Teymurun 1395-ci il yürüşü zamanı yerlə yeksan edilmişdi və demək olar ki, artıq yalnız nominal şəkildə mövcud idi. "Taxt eli"ndən quru ad və rəsmi (tarixi) status qalırdı. Seyid Əhməd və varislərinin bütün səylərinə baxmayaraq, şəhəri yenidən kütləvi yaşayış məskəninə çevirmək mümkün olmamışdı. Artıq 1440-cı ildən burada yaşayış yox idi. 1481-ci ildə isə Böyük Ordanın paytaxtı Hacıtərxan şəhərinə köçürülmüşdü. Rəsmən Qızıl Ordanın mərkəzi sayılan bu şəhər də yeni idi; Teymur qoşunlarının dağıtdığı qədim Hacıtərxanın yerində Timur Kutluğ tərəfindən salınmışdı. Məlum olduğu kimi, Teymur, Cuci ulusunun torpaqlarını tərk edəndən sonra bu şəhər və ətrafındakı ərazilər Timur Kutluğun ixtiyarına, ondan sonra isə irsən övladlarına keçmişdi. Böyük Orda yarananda Həştərxan onun tərkib hissəsi kimi Timur Kutluğun nəvəsi Kiçik Məhəmməd xanın yurduna daxil idi. İ.V.Zaytsev Kiçik Məhəmmədin ölümündən (1459) sonra onun oğlanları Mahmud və Seyid Əhmədin "hansısa bir şəkildə" Böyük Orda torpaqlarını öz aralarında bölüşdürdüklərini yazır və aşağı Volqanın Mahmudun payına düşdüyünü ehtimal edir. Lakin 1465-ci ildə Mahmud "rus eli üzərinə yürüşə gedərkən" onun qoşunları Don çayı üzərində Krım xanı Hacı Girey tərəfindən darmadağın edilir. Alimin sözlərinə görə, "görünür, Mahmudun uğursuzluğu Əhmədin təşəbbüsü ələ almasına və Böyük Ordada hakimiyyətə yiyələnməsinə imkan yaradıb". Taxtı qardaşına təhvil verən Mahmud özü Həştərxana çəkilmiş, o vaxtdan burada sakit həyat sürmüşdü (M.Q.Safarqaliyev isə onun yeni bir siyasi birliyin - Həştərxan xanlığının əsasını qoyduğunu iddia edir). Hər halda bir çox mənbələrin təsdiqlədiyinə görə, Böyük Ordanın paytaxtı Həştərxana köçürülərkən burada məhz Mahmud iqamət edirdi. Lakin bu da çox sürməmişdi. Seyid Əhməd xanın ölümündən sonra Mahmudun oğlanları (Həştərxan hakimləri) Böyük Orda taxtına iddia qaldırmış, iki qardaşın varisləri arasında qanlı toqquşmalar başlamış və onsuz da son dərəcədə zəifləmiş bu dövlət tamamilə gücdən düşmüşdü. Nəticəsi məlumdur: vəziyyətdən istifadə edən Məngü Girey xan 1502-ci ilin mayında Böyük Ordaya son zərbəni endirmiş, olan-qalan ordusunu məhv etmiş, xəzinəsini də ələ keçirərək, "Taxt eli"ni Hacıtərxandan Krım xanlığına köçürməyə müvəffəq olmuşdu. İ.Zaytsevin yazdığına görə, "1502-ci ildən tez olmamaq şərti ilə Hacıtarxan, Krım xanı tərəfindən yıxılan "Taxt eli"nin siyasi varisinə çevrildi və belə demək mümkündür ki, Hacıtarxan xanlığı Qızıl Ordanın yerini aldı".

Məngü Girey isə öz xanlığını "Uluğ Orda" adlandırır, Qızıl Ordanı canlandırmaq, yenidən qurmaq istəyi ilə köhnə ərazi-inzibati bölgü prinsipini geri qaytarmağa çalışırdı. Bu "təsnifat"a əsasən, digər tatar xanlıqları müstəqil dövlət təşəkkülü deyil, Məngü Gireyin əvvəl "öldürüb", sonra isə "diriltmək" istədiyi Uluğ Ordanın "vilayət"ləri sayılırdı: Vilayəti-Kazan, Vilayəti-Tümən (İ.Mirqaleyevin terminologiyasında "Turan vilayəti"), Vilayəti-Tura (Qərbi Sibirdəki Çimgi-Tura) və s. Özünü "taxt eli"nin sahibi-ixtiyarı hesab edən Məngü xan hakim xanədanı olmayan, yaxud başqa vilayətlərin təsiri (nəzarəti) altına düşən siyasi vahidləri sadəcə "yurd" adlandırırdı: Manqıt yurdu (Noqay Ordası), Hacıtərxan yurdu (Həştərxan xanlığı), Meşer yurdu (Qasım xanlığı) və s. Qızıl Ordanın hüquq və səlahiyyətlərini mənimsədiyini hər cəhdlə nəzərə çarpdıran Krım xanının ana məqsədi, qeyd olunduğu kimi, imperiya ərazilərini öz hakimiyyəti altında birləşdirmək, bütün bu "vilayət" və "yurd"ların özünə biət eləməsinə nail olmaq idi. Lakin çox keçmədən Krım xanının özü Osmanlı imperiyasından asılı vəziyyətə düşmüş, bu və başqa səbəblər üzündən məqsədini gerçəkləşdirə bilməmişdi. Deyilənləri nəzərə alaraq, biz həm də mətnimizi ağırlaşdırmayaq deyə Qızıl Orda varislərinin təsbit olunmasında ənənəvi bölgünü (Kazan, Krım, Həştərxan, Qasım, Sibir xanlıqları və Noqay Ordası) əsas götürməyə üstünlük verməyin tərəfdarıyıq.

**N.MUSTAFA**

Davamı növbəti sayda

İki sahil.- 2022- ci il.- 1 sentyabr.- S. 6.